Səh. 2 İş və aş – Azər Musaoğlu

Səh. 4 Vahid milli imtahanlar iyulun 3-də başlayır, iyulun 26-da bitir

Səh. 5 2023-cü ilin milli müəllim mükafatının onluğu məlumdur

Səh. 6 Möhtəşəm gün – Esmira Ələkbərli

Səh. 3 Medianın faydası və ziyanı – Aytən Fətullayeva

Səh. 4 MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 6-DA BAŞLAYIR

Səh. 7 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN
2023-CÜ İL
№ 012 (183)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## BAŞ NAZİR ÖLKƏ MÜSƏLMANLARINI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkə müsəlmanlarını Qurban bayramı münasibətilə təbrik edərək bu bayramın sülh, mərhəmət və xeyirxahlıq bayramı olduğunu bildirib.

"Dərin hörmət və məhəbbətlə müsəlman həmvətənlərimizi xeyirxahlığın, qarşılıqlı hörmətin, mərhəmət bayramı olan Qurban bayramı münasibətilə təbrik edirəm. Gürcüstan hər zaman dinlərə hörməti və tolerantlığı ilə seçilib, bu, bizim qürurverici ənənəmizdir və həmişə belə olacaq. Biz ölkəmizi birlikdə qururuq və gələcəkdə də quracağıq. Bir daha bütün müsəlmanları təbrik edirəm, hər birinə sülh və firavanlıq arzulayıram", – Baş nazirin təbrikində deyilir.

## BAŞ NAZİR TÜRKİYƏNİN MİLLİ TƏHLÜKƏSİZLİK ŞURSININ BAŞ KATİBİNİ QƏBUL EDİB



Gürcüstanda səfərdə olan Türkiyə Cümhuriyyətinin Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlu Baş nazir İrakli Qaribaşvili ilə görüşüb. Bu haqda Gürcüstan hökumət administrasiyası məlumat yayıb.

Görüşdə regionun sabit və davamlı inkişafının təmin edilməsi üçün qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb. Eyni zamanda, iki ölkə arasında mövcud strateji tərəfdaşlıq və əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılıb.

Baş nazir İ.Qaribaşvili Türkiyənin Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə, eləcə də Avroatlantik inteqrasiyasına verdiyi güclü dəstəyi yüksək qiymətləndirib. Qeyd edib ki, ikitərəfli strateji tərəfdaşlığın təkcə siyasi və iqtisadi istiqamətlərdə deyil, təhlükəsizlik sahəsində də dərinləşdirilməsi vacibdir.

Müzakirələr zamanı regional təhlükəsizliyin və sabitliyin təmin olunması üçün Gürcüstan ilə Türkiyə arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyi xüsusi qeyd edilib.

Söhbət zamanı Türkiyə-Gürcüstan-Azərbaycan üçtərəfli əməkdaşlığının perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

## PARLAMENT PREZİDENTİN SƏLAHİYYƏTLƏRİNİ MƏHDUDLAŞDIRIB



Gürcüstan parlamenti "Seçki Məcəlləsi"nə və "Milli Bank haqqında" qanuna dəyişikliklərlə bağlı yeni qanun layihələrini qəbul edib.

Müzakirələr zamanı "Milli Bank haqqında" qanun layihəsi ilə bağlı Prezident Salome Zurabişvilinin veto qoyduğu bildirilib. Lakin hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının deputatları bununla razılaşmayıb və qanuna dəyişiklikləri yenidən müzakirəyə çıxarıblar. Hakim partiyanın deputatları tərəfindən hazırlanmış qanun layihəsinə əsasən, Milli Bankın İdarə Heyətinə yeni icraedici vəzifə – birinci vitse-prezident vəzifəsi artırılır. Milli Bankın prezidenti olmadığı təqdirdə, onun səlahiyyətlərini birinci vitse-prezident həyata keçirəcək.

Parlament həmçinin "Seçki Məcəlləsi" və reqlamentlə bağlı qanunlara təklif olunan dəyişiklikləri dəstəkləyib.

Yeni qanun layihəsində Mərkəzi Seçki Komissiyasının (MSK) sədri və üzvlərinin seçilməsi ilə bağlı kvorumun dəyişdirilməsi nəzərdə tutulur. Belə ki, MSK sədri və üzvlərinin seçilməsi parlamentin tam tərkibinin səs çoxluğu ilə (76 səslə) baş tutacaq. Həmçinin MSK sədri və MSK-nın professional üzvlərinin seçilməsi ilə bağlı müsabiqə prezident tərəfindən deyil, parlamentin sədri tərəfindən elan ediləcək və bunun üçün müsabiqə komissiyası yaradılacaq.

Qeyd edək ki, hazırda qüvvədə olan qanun layihəsində MSK sədri və üzvlərinin seçilməsi ilə bağlı 2/3 səs çoxluğu nəzərdə tutulub. Kvorum baş tutmadıqda isə sədr və üzvlər parlamentin tam tərkibinin səs çoxluğu ilə seçilir.

Hər iki qanun layihəsi səsvermə zamanı qəbul olunub.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLƏRİ REGİONDAKI VƏZİYYƏTİ MÜZAKİRƏ EDİBLƏR




İyunun 17-də Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub. Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, İ.Darçiaşvili həmkarını Türkiyə Xarici İşlər Naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Telefon danışığı zamanı nazirlər Gürcüstan ilə Türkiyə arasında strateji tərəfdaşlığı daha da gücləndirməyə hazır olduqlarını bir daha təsdiqləyib və iki ölkə arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin vacibliyini vurğulayıblar.

İ.Darçiaşvili türkiyəli həmkarına Gürcüstanın ərazi bütövlüyünə və ölkənin Avro-Atlantik istəklərinə verdiyi dəstəyə görə təşəkkür edib.

Regionda sülh proseslərinin müsbət idarə olunması, regionun sabit və davamlı inkişafının təmin edilməsi üçün iki ölkə arasında əməkdaşlığın əhəmiyyəti bir daha vurğulanıb.

Tərəflər Gürcüstanın Baş naziri ilə Türkiyə Prezidentinin Ankarada keçirilən son görüşünü yüksək qiymətləndirib və yüksək səviyyəli görüşlərin hazırkı intensivliklə davam etdiriləcəyinə ümidvar olduqlarını bildiriblər.

Telefon söhbəti zamanı Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli formatında Gürcüstan-Türkiyə əməkdaşlığı müsbət qiymətləndirilib və üçtərəfli nazirlər çərçivəsində görüşməyə hazırlıq ifadə olunub.

İ.Darçiaşvili Hakan Fidanı Gürcüstana dəvət edib.



# İŞ VƏ AŞ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Etimologiya lüğətində (Bəşir Əhmədovun) iş sözü aş sözü ilə kökdaş kimi göstərilir. Lüğətdə yazılır ki, qədimdə aş hər cür qida mənbəyinin adı olub; iş – “qida”, yəni “aş üçün fəaliyyət” deməkdir...

Nəzərə alsaq ki, iş sözü həm də vəzifə, borc; əməli fəaliyyət; münasibət, əlaqə; əsər, yaradıcı insanın əməyinin məhsulu mənalarında da işlədilir, o zaman məclisə aşdan qabaq baş gəlməlidir, özü də, balıqda iylənən baş yox, insanda düşünən baş... Uzaq*başı*, aş yerinə gərək pəncərədən daş gələ ki, sonra bir xeyir işdə aşın gəlməyinə vasitə ola, yəni hər işi sevərək görək...

Aş dedim iş yaddan çıxdı – molla aşı görüb Quranı yaddan çıxaran kimi...

Kişinin başına iş gələr, təki adamın başına iş gətirən olmasın. Bu işverənlərlə dolu dünyada işsiz qalmaq çətindir desəm heç də tənbəllərin işinin üstünü açmış olmaram. İlin-günün bu istisində oturub yenidən Amerika kəşf etməklə başıma iş açmaq niyyətim də yoxdur.

Biz tənbəl deyilik, bəlkə də dünyada ən işguzar işcillərik ki, işi insanın cövhəri adlandırmışıq. Amma və lakin işə başlamaq məsələsinə gələndə ya işin qabağına kötük itələyirik, ya da canımızı işə verməyərək işin qulpundan yapışmaq əvəzinə başlayırıq iş çevirməyə, iş qarışdırmağa, iş toxumağa, iş verməyə, işi dolaşığa salmağa, işi burmağa, işi düyünə salmağa, işi uzatmağa, işdən iş çıxartmağa, işdən boyun qaçırmağa və sair. Bir də dönüb baxırıq ki, lələ köçüb, yurdu qalıb, iş işdən keçib.

Niyə?

Ona görə ki, iş zəhmət istəyir, beynini və əzələlərini işlətmək lazımdır, təkcə özünü deyil, başqalarını da fikirləşməlisən, mənfəət güdməməlisən... Biz isə tənbəllik azar artırar, işləmək canı saf eylər deyərək yenə də bir işin qulpundan yapışıb o işi aşıra bilmirik ki, bilmirik...

Yenə də niyə?

Ona görə ki, başqalarının işi bizə qalmayıb. El üçün ağlayan gözsüz qalar. Palaza bürünüb elnən sürünəndə də o palazı çırpışdırıb evə aparmaqdır niyyətimiz. Bir də ki, işim də var, gücüm də, az aşım, ağrımaz başım... Bax, görürsənmi, yenə də fırlandıq gəldik aşa.

Və yenə də niyə?

Ona görə ki, iş aş olmayınca əlimizi ağdan qaraya vurmarıq. Olsa-olsa, yeməyə kömək, işləməyə də kömək ola bilər; yoxsa, yeməyin qulu, işləməyin xəstəsi oluruq.

Maraqlıdır, biz iş başına keçəndə (“iş”i vəzifə oxu) iş görmürük, başlayırıq işverənliyə, işvəbazlığa, işrətə, işğala, işgəncəyə, qohumları işə düzəltməyə, yaralı barmağa iş... verməməyə; iştahamız daha da artır, işləməyən dişləməz desək də iş əvəzinə daha çox aş istəyirik. Məşhur sovet filmində deyildiyi kimi: “kim işləmir, o yeyir”, yəni “işləyən dişləməz”...

Ona görə də, işimiz başımızdan aşsa da, hamımız hazır aşın dik qaşığı olmaq istəyərək Əli aşından da oluruq, Vəli aşından da... Aş daşandan sonra çömçə axtarmaq isə gec olur. Nə qədər ki, işin üstünə vaxtında düşməyəcəyik, gələcəyimizi həll edən işlərdə aş güdəcəyik, nə işimiz aşacaq, nə də aşımız aşıb-daşacaq, işimiz Allaha qalacaq.

# GÜRCÜSTANDA AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİNİN BİRİNCİ QURULTAYI KEÇİRİLİB

İyunun 25-də müstəqil Gürcüstanın tarixində ilk dəfə paytaxt Tbilisidə, Azadlıq Meydanında yerləşən “Courtyard Marriott” mehmanxanasının konfrans zalında “Gürcüstanda Azərbaycandilli Məktəblərin Müəllimlərinin I Qurultayı” keçirildi.

Açılış mərasimində çıxış edən Gürcüstanın Təhsil və Elm Nazirliyinin rəsmi nümayəndəsi Despine Koyava, “Maarif” təşkilatının sədri Ələddin Qarabağlı, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin nümayəndəsi Eter Apxazava, Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi Anar Rəsulov və iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayeva çıxış edərək qurultay iştirakçılarını tarixi gün münasibətilə salamladılar və uğurlar arzu etdilər.






Daha sonra iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayevanın moderatorluğu ilə “SALAM” platformasının təsisçisi Kamran Məmmədli və Yeni Düşüncə İnstitutunun həmtəsisçisi, eyni zamanda Marneuli bələdiyyəsinin Tsopi kənd ictimai məktəbinin gürcü dili müəllimi Ariz Daşdəmirli ilə dövlət dili ilə bağlı yaşanan problemlər, həyata keçirilən islahatlarla bağlı panel müzakirə keçirilib. Aygül İsayevanın moderatorluğu ilə davam etdirilən ikinci panel müzakirənin əsas məruzəçiləri Bolnisi bələdiyyəsi 1 saylı Faxralı kənd məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, həmçinin Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin həmtəsisçisi Fatma Əliyeva və Marneuli bələdiyyəsi Yuxarı Saral ictimai kənd məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Tərgül Yusubova olub. İkinci panel müzakirədə ana dili ilə bağlı yaşanan problemlər, ana dilinin məişət dili səviyyəsinə enməsi, ana dili üzrə dərs saatlarının azaldılması və s. vurğulanıb və sonda auditoriyadan ünvanlanan suallar cavablandırılıb. Daha sonra “Maarif” təşkilatının sədri Ələddin Qarabağlı azərbaycandilli məktəblərdə yaşanan problemlərdən danışıb.

Sonda təkliflər səsə qoyulub və yekdilliklə qəbul edilib. Növbəti qurultayın 2025-ci ildə keçirilməsi qərara alınıb.

Qeyd edək ki, Gürcüstanda Azərbaycandilli Məktəblərin I Qurultayı “Maarif” təşkilatı, “SALAM” platforması və “Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi”nin birgə təşkilatçılığı ilə həyata keçirilib.

# DESPİNE KOYAVA: MƏKTƏBLƏRİN SAYININ AZALMASI OBYEKTİV SƏBƏBLƏRLƏ BAĞLIDIR

Sovet dövründə və müstəqilliyimizin ilk illərində Gürcüstanda 180-ə yaxın azərbaycandilli məktəb olub. Lakin sonradan bu məktəblərin sayı azalmağa başlayıb.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Təhsil və Elm Nazirliyinin məsul əməkdaşı Despine Koyava söyləyib.



Onun sözlərinə görə, bu azalma təkcə azərbaycandilli məktəblərdə baş verməyib. Gürcüdilli, eyni zamanda, digər milli azlıqlara məxsus məktəblərin sayında əsaslı dərəcədə azalma qeydə alınıb.

Məktəblərin sayının ən çox azalması 2000-ci ilin əvvəllərindən başlayıb və 2012-ci ilə qədər davam edib.

Nazirlik rəsmisi deyir ki, məktəblərin sayının azalması kadr çatışmazlığı, milli azlıqların öz övladlarını gürcüdilli məktəblərə yazdırması nəticəsində onlara məxsus məktəblərdə şagird sayının azalması, məcburiyyət səbəbindən iki, bəzən üç məktəbin birləşdirilməsi nəticəsində baş verib.

Qeyd edək ki, Gürcüstanda 2000-ci ilə qədər 174 azərbaycandilli məktəb olub. Lakin indi onların sayı 116-ya enib.

# TÜRKİYƏNİN MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASININ BAŞ KATİBİ GÜRCÜSTANIN YÜKSƏK RÜTBƏLİ RƏSMİ ŞƏXSLƏRİ İLƏ BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB



Gürcüstanda səfərdə olan Türkiyə Cümhuriyyətinin Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlu Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri ilə görüşüb. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi məlumat yayıb.

Görüşdə tərəflər iki dövlət arasında tərəfdaşlıq əlaqələrinin əhəmiyyətini müzakirə ediblər.



Vaxtanq Qomelauri Gürcüstan və Türkiyənin hüquq-mühafizə orqanları arasında sıx əməkdaşlığa xüsusi diqqət yetirib, Daxili İşlər Nazirliyinin imkanlarının inkişafında Türkiyə Daxili İşlər Nazirliyinin mühüm rolunu vurğulayıb.

Söhbət zamanı iki dövlət arasında sərhəd mühafizəsi sahəsində mövcud əməkdaşlıq, cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilən tədbirlər və bu istiqamətdə əməkdaşlığın perspektivləri də müzakirə olunub.

Qeyd edək ki, Seyfullah Hacımüftüoğlu iyunun 21-də başlayan kibertəhlükəsizlik forumunda iştirak etmək üçün Tbilisiyə işgüzar səfər edib. O, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də daxil olmaqla Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze, Gürcüstanın xarici işlər



naziri İlia Darçiaşvili ilə də görüşlər keçirib və Gürcüstanın Milli Təhlükəsizlik Şurası Aparatının rəhbəri Givi Tumanişvili ilə birgə Gürcüstan Milli Təhlükəsizlik Şurası Aparatı ilə Türkiyə Cümhuriyyəti Milli Təhlükəsizlik Şurasının Baş Katibliyi arasında Anlaşma Memorandumunu imzalayıb.



# TBİLİSİDƏ AZƏRBAYCAN VƏ GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA NÖVBƏTİ SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLİB



İyunun 19-da Tbilisidə Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.

Nümayəndə heyətlərinə Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov, Gürcüstan tərəfdən isə xarici işlər nazirinin birinci müavini Laşa Darsalia rəhbərlik ediblər.

Görüşdə iki ölkə arasında münasibətlərin hazırkı durumu nəzərdən keçirilib, siyasi, sosial-iqtisadi, humanitar və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlar müzakirə olunub. İqtisadi əlaqələrin inkişaf etdirilməsi baxımından Azərbaycan ilə Gürcüstan arasında Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti, Azərbaycan-Gürcüstan əməkdaşlığının regiona töhfəsinin vacibliyi vurğulanıb. Eyni zamanda, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının və regional əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Nazir müavini X.Xələfov 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar, Azərbaycanın Cənubi Qafqaz regionunda sülh gündəliyinin reallaşması istiqamətində səyləri və addımları barədə məlumat verib. Bu çərçivədə Gürcüstan rəhbərliyinin və hökumətinin təşəbbüslərinin yüksək qiymətləndirildiyi bildirilib. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, əhalinin doğma yurdlarına qayıtması istiqamətində icra olunan layihələr, Qarabağın erməni əhalisinin Azərbaycanın hüquqi, iqtisadi və sosial mühitinə reinteqrasiyası ilə bağlı atılan addımlar və bu addımlara münasibətdə Ermənistan tərəfindən aparılan pozuculuq fəaliyyətlərini qarşı tərəfin diqqətinə çatdırıb.

Gürcüstan xarici işlər nazirinin birinci müavini Laşa Darsalia Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın əhəmiyyətinə toxunub, hər iki ölkənin səfirliklərinin fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə Azərbaycan və Gürcüstan arasında strateji xarakter daşıyan dostluq və qonşuluq əlaqələrinin möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb.

# MEDİANIN FAYDASI VƏ ZİYANI



Aytən FƏTULLAYEVA

Sual versələr ki, həyatınızda bir gün media olmasa bütün günü nə edərdiniz? Bu suala cavab belə axtarmamışam, çünki mediasız bir günümü təsəvvür edə bilmirəm.

Keçmişlə müqayisədə media bu gün o qədər inkişaf edib ki, dünyanın hər bir guşəsindən istədiyimiz vaxt xəbərdar oluruq. İstər müharibə, istər cinayət, istər oğurluq hadisəsi, istərsə də zəlzələ və s. Bir çox mövzunu misal çəkmək olar. Bir sözlə, dünyanın hər yerində baş verən hadisələri medianın köməyi ilə yaxından izləyirik.

Media həyatımızın ayrılmaz hissəsinə çevrilib. Media vasitəsi olaraq televiziya, qəzet, radio, internet hesab olunur. Bunların içərisində ən çox istifadə edilən internetdir. Hər səhər oyanan kimi, görəsən, bu gün yeni bir xəbər varmı, deyə telefonları açırıq. Çünki günümüzdə istədiyimiz hər şeyi internetdə tapırıq. Bildiyimiz kimi, artıq qəzet, jurnal və bu kimi vəsaitləri oxuyanların sayı günü-gündən azalır. Çünki bu gün çoxumuz dünyada baş verən hadisələri çox asanlıqla sadəcə bir düyməyə toxunmaqla internet vasitəsilə öyrənə bilirik.

Medianın vasitəsilə insanlar bir-birləri ilə daima əlaqədə olurlar. Bir günümüzü belə ayrı keçirə bilmədiyimiz, demək olar ki, hər saat baş çəkdiyimiz sosial media da bunlardan biridir.

Bu gün hər birimiz sosial mediadan məqsədli və məqsədsiz şəkildə istifadə edirik. Sosial mediadan istifadənin həm müsbət, həm də mənfi tərəfləri var. Müsbət tərəflərindən danışsaq, cəmiyyətimizin inkişafında olduqca böyük rolu var. Biz sosial media vasitəsilə onlayn tədbirlərə qoşulur, seminarlarda iştirak edə bilirik. Elmi araşdırmalar edir, bir çox əldə edə bilmədiyimiz kitabları PDF şəklində endirib oxuya bilirik. Adını eşitdiyimiz, amma görmədiyimiz yerləri araşdırıb dünya görüşümüzü artırırıq. Media vasitəsilə bir çox şirkətlər öz məhsullarını reklam edirlər. Bəziləri üçün sosial media qazanc mənbəyidir. Yüzlərlə onlayn satış səhifələrindən alış-veriş edirik. Təbii ki, bu da səhifə sahibləri üçün qazanc deməkdir. O cümlədən sosial media insanlar arasında ünsiyyət vasitəsidir. Dostlarla hal-əhval tutub, yeni insanlarla tanış oluruq.

Lakin bütün bunlara baxmayaraq, müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də var. Sosial medianın mənfi tərəflərindən biri gəncləri aktiv həyatdan uzaqlaşdırmasıdır. Sosial mediada həddindən artıq çox vaxt keçirmək insanı hərəkətsiz edir. Sosial mediada gənclər artıq yazışmağa daha çox üstünlük verdikləri üçün yaza bilən, amma nitq qabiliyyəti olmayan gənclərin sayı artır. Gənclər üz-üzə söhbət etmək yerinə yazışmağı seçirlər. Telefon və ya kompüter arxasında olduqca doğru və yerində sözlər istifadə etməyi bilən bəzi gənclər üz-üzə ikən danışmağı bacarmırlar.

Biz gənclər, ümumiyyətlə, bu cür sosial şəbəkələrdən istifadə edən hər bir şəxs, özünə məhdudiyyət qoysa daha yaxşı olar. Saatlarla ekranı yuxarı sürüşdürərək vaxtımızı itirmək yerinə, vaxtımızı daha maraqlı şeylərə sərf edə bilərik.

Media bizi məlumatlı edir. Məlumatlı insan isə həm özü, həm də ətrafı ilə bağlı daha düzgün qərarlar qəbul edə bilir.

## VAHİD MİLLİ İMTAHANLAR İYULUN 3-DƏ BAŞLAYIR, İYULUN 26-DA BİTİR

Vahid milli imtahanlar 3 iyulda gürcü dili və ədəbiyyat fənni üzrə imtahanla başlayacaq, 26 iyulda isə fizika fənni üzrə imtahanla başa çatacaq.

12 iyulda tələbələrin qrant müsabiqəsi keçiriləcək. Magistratura namizədləri isə 27-28 iyulda ümumi magistratura imtahanını verəcəklər.

Xatırladaq ki, 2023-cü ilin vahid milli imtahanları, tələbələrin qrant müsabiqəsi, ümumi magistratura, eləcə də müəllimlərin fənn imtahanı, xüsusi baş müəllim imtahanı üçün ümumilikdə 75 mindən artıq şəxs qeydiyyatdan keçib.

**İmtahanlara qeydiyyat olunanların ətraflı statistikası isə bu cürdür:**

• *Vahid milli imtahanlar üçün rekord göstəricidə – 45 000-dən artıq abituriyent qeydiyyatdan keçib;*

• *Tələbələrin qrant müsabiqəsində iştirak etmək üçün 3000-dən artıq tələbə öz istəyini bildirib;*

• *Ümumi magistratura imtahanı üçün 10 000-dən artıq namizəd qeydiyyatdan keçib;*

• *Müəllimlərin fənn imtahanına 16 000-dən artıq aplikant qeydiyyatdan keçib;*

• *Xüsusi müəllim imtahanı üçün 2500-ə qədər şəxs qeydiyyatdan keçib.*

**Fənlərə görə imtahan vaxtları aşağıdakı kimidir:**

**Gürcü dili və ədəbiyyat:**
3 iyul (birinci və ikinci sessiya);
4 iyul (birinci və ikinci sessiya);
5 iyul (birinci sessiya).
**Osetin dili:**
3 iyul (birinci sessiya).
**Riyaziyyat:**
7 iyul (birinci və ikinci sessiya).
**Xarici dillər:**
10 iyul (birinci və ikinci sessiya) – ingilis dili;
11 iyul (birinci və ikinci sessiya) – ingilis dili;
12 iyul (birinci sessiya) – ingilis dili;
12 iyul (ikinci sessiya) – rus dili;
12 iyul (ikinci sessiya) – fransız dili;
12 iyul (ikinci sessiya) – alman dili.
**Biologiya:**
14 iyul (birinci sessiya).
**Tarix:**
17 iyul (birinci və ikinci sessiya);
18 iyul (birinci sessiya).
**Ümumi qabiliyyət (erməni dilində):**
18 iyul (ikinci sessiya).
**Ümumi qabiliyyət (Azərbaycan dilində):**
18 iyul (ikinci sessiya).
**Coğrafiya:**
19 iyul (ikinci sessiya).
**Kimya:**
20 iyul (ikinci sessiya).
**Tətbiqi və təsviri incəsənət:**
20 iyul (ikinci sessiya).
**Vətəndaş təhsili:**
21 iyul (ikinci sessiya).
**Ədəbiyyat:**
25 iyul (birinci sessiya).
**Fizika:**
26 iyul (birinci sessiya).

***Abituriyentlərin nəzərinə:*** Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz xatırladır ki, təhsil proqramının siyahısında apelyasiya nəticələrinin yayımlanmasının növbəti günü dəyişiklik edə bilərsiniz. Konkret tarix avqust ayında məlum olacaq.

2023-cü ildə bütün Gürcüstan miqyasında ümumilikdə 24 imtahan mərkəzi açılacaq. Mərkəzlər Tbilisi, Batumi, Zuqdidi, Kutaisi, Poti, Axaltsixe, Qori, Ozurgeti, Rustavi, Telavi və Xuloda fəaliyyət göstərəcək. Bu il ilk dəfə Ambrolauridə də imtahan mərkəzi açılacaq.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz imtahanda iştirak edənlərə bildirir ki, bu il imtahanlarla əlaqədar "COVID" tənzimləmələr qüvvədə deyil. Digər infeksiya xəstəlikləri olan şəxslər kimi, koronavirusa yoluxmuş şəxslər də mərkəzin qaynar xətti – (+995 32) 2 47 33 33 – nömrəsi ilə əlaqə saxlamalı və imtahan başlayana qədər müvafiq tibbi sənəd təqdim etməlidirlər. Sənəd Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə (Ünvan: Tbilisi şəhəri, E.Mindeli küçəsi, N9) təqdim olunmalıdır ki, həmin sessiyada, xüsusi quraşdırılmış imtahan sektorunda imtahan verə bilsinlər.

## MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 6-DA BAŞLAYIR



Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru Sopio Qorqodze 2023-cü il imtahan qrafiki ilə əlaqədar brifinq keçirib. Fənn və xüsusi baş müəllim imtahanına qeydiyyatdan keçənlər 6 iyuldan imtahan prosesinə qoşulacaqlar.

**Fənn və xüsusi baş müəllim imtahanının fənlərə görə vaxtları isə bu cürdür:**

**6 iyul (birinci sessiya):**
Gürcü dili və ədəbiyyat (baza və ya orta pillə);
Tarix (baza və ya orta pillə);
Kimya (baza və ya orta pillə);
Biologiya (baza və ya orta pillə).
**6 iyul (ikinci sessiya):**
Riyaziyyat (baza və ya orta pillə);
Coğrafiya (baza və ya orta pillə);
Fizika (baza və ya orta pillə);
Tətbiqi və təsviri incəsənət.
**13 iyul (birinci sessiya):**
Vətəndaş təhsili (baza və ya orta pillə);
Musiqi;
İdman.
**14 iyul (birinci sessiya):**
Xüsusi baş müəllim imtahanı.
**19 iyul (birinci sessiya):**
Gürcü dili və ədəbiyyat, riyaziyyat və təbiətşünaslıq (I-IV);
Gürcü dili və ədəbiyyat (ibtidai pillə);
Riyaziyyat (ibtidai pillə);
Təbiətşünaslıq (ibtidai pillə).
**19 iyul (ikinci sessiya):**
Azərbaycan dili;
Erməni dili.
**20 iyul (birinci sessiya):**
İngilis dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
Alman dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
Fransız dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
Rus dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
Gürcü dili (qeyri-gürcüdilli məktəblər/sektorlar üçün) (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
Kompüter texnologiyaları – yazı hissəsi.
**21 iyul (birinci və ikinci sessiya):**
Kompüter texnologiyaları – praktiki hissə.
**24 iyul:**
İngilis dili (başlanğıc, baza və ya orta pillə) – praktiki hissə;
Alman dili (başlanğıc, baza və ya orta pillə) – praktiki hissə;
Fransız dili (başlanğıc, baza və ya orta pillə) – praktiki hissə;
Rus dili (başlanğıc, baza və ya orta pillə) – praktiki hissə;
Gürcü dili (qeyri-gürcüdilli məktəblər/sektorlar üçün) (başlanğıc, baza və ya orta pillə) – praktiki hissə;
Kompüter texnologiyaları – praktiki hissə.

## MƏKTƏB VƏ BAĞÇA ƏMƏKDAŞLARININ ƏMƏKHAQQI YENƏ DƏ AŞAĞIDIR



Gürcüstanın Statistika Xidməti tərəfindən yayımlanmış məlumatda təhsil sahəsində əməkhaqqı yenə də sonuncu yeri tutur.

Doğrudur, təhsil istiqamətində orta aylıq əməkhaqqı 2022-ci ilin birinci rübü ilə müqayisədə (895 lari) artıb və 2023-cü ilin birinci rübündə bu rəqəm 1009 lari təşkil edib. Amma orta aylıq əməkhaqqı ilə müqayisədə bu, yenə də aşağıdır.

Qeyd edək ki, Gürcüstanın Milli Statistika Xidməti tərəfindən yayımlanmış göstəricilərə əsasən, 2023-cü ilin birinci rübündə ölkədə orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,7 faiz (270,1 lari) artıb və 1 716,6 lari təşkil edib.

***4-cü və 5-ci səhifələrdəki məlumatlar "etaloni.ge" saytından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA***

## MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLARIN FƏNLƏRƏ GÖRƏ MAKSİMUM BALLARI VƏ İMTAHAN VAXTLARI

**Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2023-cü ilin xüsusi baş müəllim və fənn imtahanları üçün maksimum balları və imtahan vaxtlarını yayımlayıb:**

| | Test hissəsi: | Maksimum bal: | İmtahan müddəti: |
|---|---|---|---|
| 1 | **Gürcü dili və ədəbiyyat** | **70** | **4 saat** |
| 2 | **Riyaziyyat** | **41** | **4 saat** |
| 3 | **Coğrafiya** | **55** | **4 saat** |
| 4 | **Biologiya** | **60** | **3 saat 30 dəqiqə** |
| 5 | **Kimya** | **60** | **4 saat** |
| 6 | **Fizika** | **60** | **4 saat** |
| 7 | **Tarix** | **55** | **4 saat** |
| 8 | **Vətəndaş təhsili** | **55** | **4 saat** |
| 9 | **Xarici dil** | **90** | **4 saat** |
| | *Dinləmə hissəsi* | *16* | |
| | *Yazı hissəsi* | *22* | |
| | *Oxu hissəsi* | *36* | |
| | *Danışıq hissəsi* | *16* | *15 dəqiqə* |
| 10 | **Başlanğıc pillə (I-IV)** | **65** | **4 saat** |
| | *Peşə biliyi* | *51* | |
| | *Akademik bacarıqlar* | *14* | |
| 11 | **Gürcü dili və ədəbiyyat (I-VI)** | **53** | **4 saat** |
| | *Peşə biliyi* | *39* | |
| | *Akademik bacarıqlar* | *14* | |
| 12 | **Riyaziyyat (I-VI)** | **53** | **4 saat** |
| | *Peşə biliyi* | *39* | |
| | *Akademik bacarıqlar* | *14* | |
| 13 | **Təbiətşünaslıq (I-VI)** | **53** | **4 saat** |
| | *Peşə biliyi* | *39* | |
| | *Akademik bacarıqlar* | *14* | |
| 14 | **Tətbiqi və təsviri incəsənət** | **60** | **4 saat** |
| 15 | **Gürcü dili (qeyri-gürcüdilli məktəblər/sektorlar üçün)** | **85** | **4 saat 30 dəqiqə** |
| | *Dinləmə hissəsi* | *9* | |
| | *Oxu hissəsi* | *25* | |
| | *Yazı hissəsi* | *20* | |
| | *Peşə biliyi* | *20* | |
| | *Danışıq hissəsi* | *11* | *15 dəqiqə* |
| 16 | **İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları** | **70** | |
| | *Peşə biliyi* | *35* | *1 saat 30 dəqiqə* |
| | *Praktiki bacarıqlar* | *35* | *2 saat 30 dəqiqə* |
| 17 | **İdman** | **70** | **2 saat 30 dəqiqə** |
| 18 | **Musiqi** | **70** | **4 saat** |
| 19 | **Erməni dili** | **70** | **4 saat** |
| 20 | **Azərbaycan dili** | **70** | **4 saat** |
| 21 | **Xüsusi baş müəllim imtahanı** | **54** | **4 saat** |

## İLK DƏFƏ İMTAHANDA İŞTİRAK EDƏN MÜƏLLİMLƏR ÜÇÜN

Müəllimlər və müəllim olmaq istəyənlər fənn imtahanlarına hazırlaşırlar. Təbii ki, onlar arasında imtahanı ilk dəfə verənlər və təcrübəsi olmayanlar da var.



Müəllim kompetensiyasını yüksəltmək üçün imtahana gedirsinizsə ilk növbədə nəyi nəzərə almalısınız? Vacib olan nədir və nəyə daha çox vaxt sərf etməlisiniz?

İmtahan günü ən mühüm olan imtahan mərkəzinə vaxtında getməkdir, çünki qeydiyyat başa çatdıqdan sonra imtahana heç kim buraxılmır.

İmtahanın günü və saatı sizin imtahan kartınızda qeyd olunacaq. Əksər hallarda aplikantlar imtahan gününü və saatını səhv salırlar. Ona görə də, yaxşı olar ki, əvvəlcədən kartda yazılmış məlumatla diqqətlə tanış olasınız.

İmtahana gedəndə şəxsiyyət vəsiqənizi və imtahan kartınızı özünüzlə götürün. Çünki imtahana girmək üçün onları təqdim etmək vacib şərtdir.

Əgər imtahan mərkəzinə girənə kimi köməkçi material və ya lüğətə baxsanız, həmin əşyaları qeydiyyat zamanı özünüz təhvil verin. Həmçinin imtahan ərazisinə mobil telefon, kalkulyator, başqa elektron cihazlar və ya saat aparmayın. Çünki onların, hətta, söndürülmüş vəziyyətdə belə aşkarlanması halında imtahandan uzaqlaşdırılacaqsınız.

Kurator qaydaları izah edən zaman diqqətlə dinləyin və icazəsiz heç nə etməyin. İcazə verilməyənə qədər imtahan testi üzərində işləməyə də başlamayın.

Kuratorla birlikdə cavablar kağızına diqqətlə baxın. Çünki elə hallar olur ki, cavablar kağızı problemli olur. Bu zaman onu dəyişmək hüququnuz var. Cavablar kağızınızın qaydasında olduğuna əmin olduqdan sonra sektor sənədinə imza atın.

Test üzərində işləmək üçün vaxtı düzgün bölmək vacibdir. Əgər cavabını bilmədiyiniz və ya əmin olmadığınız sual olarsa, vaxt itirməyin, növbəti suala keçin. İmtahan vaxtı ərzində cavablandırmadığınız suala istədiyiniz qədər qayıda bilərsiniz. Ona görə, yaxşı olar ki, cavabını dəqiq bildiyiniz tapşırıqları yerinə yetirəsiniz.

İlk növbədə bildiyiniz cavabları yazmağınız baryeri aşmaq üçün neçə balınızın çatışmadığını hesablamağa və müəyyən etməyə, sonra isə yenidən testə qayıdıb işləməyə davam edə bilməyinizə kömək edəcək.

Açıq suallara, yalnız konkret nə soruşduqlarına cavab verin. Tapşırığı boş sözlərlə uzatmağınız sizə bal qazandırmayacaq, qısa, konkret və aydın şəkildə yazın.

Sualları cavabsız qoymayın. Yazılı tapşırıq zamanı çalışın nə tələb edirlər onu yazasınız. Heç bal qazanmamaqdansa az bal qazanmağınız daha yaxşıdır. Heç bir halda cavablar kağızını boş qoymayın.

Cavablar kağızını doldurmaq üçün yalnız mərkəzin və ya mərkəz tərəfindən icazə verilmiş qələmdən istifadə edin. Cavablar kağızında tapşırıqla əlaqəsi olmayan heç nə yazmayın (ad, nömrə, ünvan, qeyd, fiqur və s.).

İmtahan vaxtı başa çatan kimi test üzərində işləməyi dayandırın və cavablar kağızını kuratora təhvil verin.

İmtahan mərkəzindən çıxanda qeydiyyat zamanı qoyduğunuz əşyaları götürməyi unutmayın.

## 2023-CÜ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞU MƏLUMDUR

Təhsil Koalisiyasının təşəbbüsü ilə həyata keçirilən Milli Müəllim Mükafatı müsabiqəsi çərçivəsində ən yaxşı onluq müəyyən olunub. Onlardan biri 5 oktyabr Beynəlxalq Müəllimlər Günü Milli Müəllim Mükafatının sahibi olacaq. Bundan əlavə, qalibə kampaniyanın baş sponsoru – Qudavadze-Patarkatsişvili Fondu tərəfindən 15000 lari pul mükafatı veriləcək. Onluğun qalan üzvlərini isə “Liberty” Bank mükafatlandıracaq.

**2023-cü ilin ən yaxşı on müəllimi bunlardır:**

• **Kamran Əfəndiyev** – Marneuli bələdiyyəsinin Mollaoğlu və Tsopi kənd ictimai məktəbinin gürcü dili ikinci dil kimi fənni üzrə müəllim;

• **Nana Qoqatişvili** – Tbilisi Qoqita Kiknadze adına 182 saylı ictimai məktəbin mən və cəmiyyət, vətəndaşlıq və vətəndaş təhsili fənləri üzrə müəllim;

• **İna İmedaşvili** – Tbilisi “UG” məktəbinin ibtidai sinif, gürcü dili və ədəbiyyat müəllimi;

• **Marine Kvaratsxelia** – Tsalençixa bələdiyyəsinin akademik Eqnate Pipia adına Çkvaleri icmasının ictimai məktəbinin gürcü dili və ədəbiyyat müəllimi;

• **Manuşak Mkrtçyan** – Ninotsminda bələdiyyəsinin Rodionovka kənd ictimai məktəbinin gürcü dili ikinci dil kimi fənni üzrə müəllim;

• **Nino Niparişvili** – Kaspi bələdiyyəsinin Besik Niparişvili məktəb – gimnaziyasının mən və cəmiyyət, vətəndaşlıq və vətəndaş təhsili fənləri üzrə müəllim;

• **Nino Psuturi** – Qori 8 saylı ictimai məktəbin biologiya müəllimi;

• **Tamar Tsanava** – Tbilisi Kakutsa Çoloğaşvili adına 178 saylı ictimai məktəbin ingilis dili müəllimi;

• **Lela Tsurtsumia** – Qori 12 saylı ictimai məktəbin vətəndaş təhsili, vətəndaşlıq və tarix fənləri üzrə müəllim;

• **Nestan Xorxomelidze** – Duşeti bələdiyyəsinin Şuapxo kənd ictimai məktəbinin coğrafiya müəllimi.

Xatırladaq ki, Milli Müəllim Mükafatı Təhsil Koalisiyasının, Gürcüstanın Təhsil və Elm Nazirliyinin, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 mayında təsis edilib. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 6-cı dəfədir həyata keçirilir. Mükafat müəllimlərin populyarlaşdırılmasına istiqamətlənmiş qlobal kampaniya – “The Global Teacher Prize”ın bir hissəsidir.

Müsabiqənin baş sponsoru Qudavadze-Patarkatsişvili Fondudur. Qızıl sponsoru isə “Liberty” Bank və İlia Dövlət Universitetidir. Sponsorlar: “EPAM Georgia”, Konsultasiya və Treninq Mərkəzi (ctc) və Alte Universiteti, mükafatın dəstəkçiləri isə Təhsil və Elm Nazirliyi, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz, Birinci Kanal/Teleməktəb və “Maverik” Rəqəmsal-Kreativ Agentliyidir.

*Mənbə: edu.aris.ge*

# MÖHTƏŞƏM GÜN



Tarixi şəxsiyyətlərə qibtə edərək böyümüşdüm, onlar tarix yazır deyə, amma heç ağlıma gəlməzdi bir gün mən də yazılan bir tarixi anın nəinki şahidi, iştirakçısı olacam. Arzulanan, yaşanan, tarixə dönüşən bir gün: 25 iyun 2023-cü il.

Qurultay qədim türk xalqlarında sayılıb-seçilən insanların yığılıb lazımlı mövzuların müzakirəsini keçirdiyi geniş məclislər idi. Etiraf edim ki, qurultay deyəndə ağlıma, uşaqlıqdan yadımda qalan, qəzetlərin ilk səhifəsini böyük hərflərlə bəzəyən partiya qurultayı, onların iştirakçıları haqqında geniş yazılar gəlir. Fərqində olmadan ötüb keçsəm də yaddaşımda iz buraxıb. Amma heç ağlıma da gəlməzdi ki, bir gün özüm o tarixi anı yaşayacam və yazılan tarixin iştirakçısı olacam. Bəli, o tarix yazıldı, özü də qızıl hərflərlə.

Qədim Tiflisin Azadlıq meydanı, o meydanda sıralanan binalardan birində təsdiqlənən Gürcüstan, Azərbaycan demokratik respublikalarının Azadlıq Bəyannaməsi... Elə o meydandan, tarixi binadan, elə yığıldığımız konfrans zalından Topçubaşov çıxış edərək Amerikaya Vilsonla görüşə getmişdi. Tarix yazdıran konfrans zalı bizim üçün də yazdı. Yazmaq istədiyimizi bu gün tariximizdə ilk dəfə olaraq Gürcüstanda azərbaycanlı müəllimləri bir araya yığdı – müəllimlər qurultayına.

300-dən çox müəllimi bir araya yığan Aygül İsayevanın böyük zəhməti, görüşləri, təbii ki, icazəli yığıncağı baş tutdu. “Salam” platforması, Qafqaz İnteqrasiya Mərkəzi və “Maarif” təşkilatının dəstəyi ilə problemlərimizi və birliyimizi özündə əks etdirən qurultayımız möhtəşəmə doğru addımlayırdı. Demək olar ki, zala ilk daxil olan mən oldum. Tarixi məkan, divardakı panel, hər oturacağa qoyulmuş iri kitabça (Azərbaycan, gürcü, ingilis dillərində) səliqəli və diqqətli hazırlığın bəhrəsi idi.

Artıq müəllimlər toplaşırdılar. Hələ başlamağa bir saat qalmasına rəğmən müxtəlif rayonlardan – dağdan, arandan, kənddən, şəhərdən “gecikməyim” deyə hamı tez gəlmişdi. Sanki, el dilimizlə desək, “söyüncək” olmuşduq. Necə də olmayaq...

Qeydiyyat başladı. Mən içəridən həyəcanla özümüzü seyr edirdim. Elə kövrəlmişdim ki, ifadə edə bilməyəcəyim tərzdə... Aygül də həyəcanlı idi. Siyahıda olanlardan əlavə adamlar gəlmişdi. Zal dolmağa başladı, foye də dolu idi, demək olar ki, əsl ziyalı yığıncağı idi, yalnız müəllimlər...

Məlumdur ki, dünyanın maariflənməyə başladığı feodalizm girdabından kapitalizm ağuşunda özünü inkişaf etdirən bir zamanda çar Rusiyası da ədalət bayrağını qaldırmağa başladı, Tiflis Zaqafqaziya canişinliyinin mərkəzi olması səbəbindən, yəqin, ilk rus-tatar məktəbi də burada açıldı (Yeri gəlmişkən, yerli türklərə ona görə tatar deyirdilər ki, Rusiya tatar ərazilərini daha əvvəl işğal etmişdi – XVIII əsrin əvvəllərində Gürcüstan Rusiya ilə birləşdiriləndə, sonralar (1813-1828-ci illər) Azərbaycan işğal olunanda Tiflis, Borçalı qəzası, İrəvan, Azərbaycan əhalisinin tatarlarla eyni dil kimi danışdığına görə elə türkləri də tatar adlandırdılar. Yəni gürcülərin də bizə tatarlar deməsinin səbəbi budur. Məncə, digər fikir elə bizi qarşı-qarşıya gətirmək istəyənlərin təxribatıdır).

İlk olaraq Tiflisdə 1847-ci ildə ibtidai rus-tatar məktəbi yaradıldı. Tiflisdə ikinci məktəb 1849-cu ildə açıldı. Axı bu, molla məktəblərindən sonra bir ilk idi. Çar ədalət bayrağını qaldırmışkən 22 noyabr 1873-cü ildə nizamnamə qəbul olundu ki, qəzalarda da dünyəvi məktəblər açılsın və 1875-ci ildə Borçalı qəzasında Qızılhacılı kənd dünyəvi məktəbi açıldı. N.Nərimanov sonralar o məktəbdə müəllim işləyəcəkdi. Ancaq hələ Bakı quberniyasında 1887-ci ildə, İrəvan quberniyasında 1896-cı ildə, hətta, Dərbənddə 1902-ci ildə rus-tatar məktəbləri açılacaqkən Tiflisdə və Borçalıda artıq məktəblər var idi. Bu, bir maarif tariximizdən qürur yerimizdir (1886-cı ildə Qaracala, 1900-cü ildə Sarvan kənd məktəbi (Marneuli), 1901-ci ildə Arxlı, 1903-cü ildə Sadaxlı və s. məktəblər açılırdı). Gürcüstan Demokratik Respublikası dönəmində də, sovetlər yarananda da Gürcüstanda Azərbaycandilli (1935-ci ilə qədər türk məktəbləri) məktəblərin sayı artmağa başladı.



İlk Ümum Gürcüstan Müəllimlər Qurultayı 1925-ci ildə keçirildi. O dövrün çətinliklərinə rəğmən artıq dünyəvi məktəblərin sayı ümum dövlət səviyyəsində artırdı. Gürcüstan müəllimlərinin ikinci qurultayı zamanı – 1959-cu ildə Azərbaycan məktəblərinin sayı artıq 164 idi, üçüncü qurultayda (1977) isə 174 məktəbimiz var idi. Sovetlər dağılanda isə 206 məktəb, 47000 şagird və 12000 müəllim var idi. Ötən əsrin sonuna qədər 186 məktəbimiz var idi, hazırda 116 məktəb fəaliyyət göstərir.

Gürcüstanda Azərbaycandilli Məktəblərin Müəllimlərinin I Qurultayı isə Gürcüstan tarixində ilk idi. Qonaq qismində Gürcüstanın Təhsil və Elm Nazirliyindən məsul işçilər, Təhsil komitəsinin sədr müavini Xatuna Kartozia, nazirliyin məsul işçisi Despine Koyava, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin nümayəndəsi Eter Abxazava, Azərbaycanın Gürcüstandakı səfirliyindən Anar Rəsulov dəvət olunmuşdular.

Onlar qurultayın açılışı üçün ön söz dedilər və təbrik etdilər. Sonra üç paneldən, iki fasilə və üç müzakirədən ibarət olan qurultay başladı.

İlk olaraq dövlət dili ilə bağlı problemlər və həlli yolları müzakirə olundu. Müzakirədə Aygül İsayevanın yönəldiciliyi ilə “Salam” platformasının təsisçisi Kamran Məmmədli və Yeni Düşüncə İnstitutunun yaradıcısı, Marneulinin Tsopi kənd məktəbinin gürcü dili müəllimi Ariz Daşdəmirli çıxış etdilər. Kamran Məmmədli bütün problemləri, necə deyərlər, yerli-yataqlı, mədəni, ziyalı qaydada nazirlik nümayəndələrinin nəzərinə çatdırdı. O, olduqca dolğun, savadlı, səviyyəli çıxışı ilə yadımda qaldı. Ariz Daşdəmirli isə öz təcrübəsindən irəli gələn və müsbət nəticəyə aparan yollarını izah etdi, yeni yollardan danışdı. Birinci panel sonu müzakirə olundu, problemlər dinlənildi, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin, Təhsil və Elm Nazirliyinin nümayəndələri dinlədilər və fikirlərini bildirdilər. İkinci paneldə isə Marneulinin Yuxarı Saral kənd məktəbindən Tərgül müəllim və Bolnisinin Faxralı kənd məktəbinin müəllimi Fatma müəllim ana dilimizin problemlərini açıqladılar. Fatma müəllim yenə də möhtəşəm çıxışıyla zalı lərzəyə gətirdi, Tərgül müəllim isə kövrələrək “məndən sonra məktəbimizdə Azərbaycan dili müəllimi olmayacaq, uşaqlarımız kor böyüməsin” təbilini çaldı. Panel sonu dərs saatlarının azaldılması və həlli yolları müzakirə olundu.

Nəhayət üçüncü paneldə “Maarif” təşkilatının sədri Ələddin Qarabağlı danışdı. Etiraf edim ki, çox səviyyəli, səmimi, mədəni ardıcıllığı öz aqressiv gedişiylə Ələddin müəllim pozdu. Bu, mənim fikrimdir. Mən belə istəməzdim. Problemin yolunu səbirlə, sivil həll etmək daha təqdirəlayiqdir. Məktəblərin bağlanma səbəbi tək dövlət deyil, həm də özümüzük. Mən uşağımı qeyri-milli məktəbə aparıramsa, sinif bağlanırsa, deməli, bir az da günahı özümüzdə axtarmaq lazımdır. Öz milli təfəkkürümüzü təkmilləşdirmək də lazımdır, bütün günahı dövlət qurumuna yönəltmək ədalətsizlikdir, düşünürəm... Ancaq nazirlik nümayəndələri təmkinlə suallara cavab verdilər.

Onu da yazım ki, bütün çıxışlar sinxron tərcümə olunurdu. Oqtay Kazımov və Aytac Xəlilova bu işi öhdəsinə götürmüşdü.

Qurultay sonunda təkliflər nəzərə alınmaqla qərarlar qəbul olundu. Məktəblərdə ana dili saatı 5 saata çatdırılsın, kadr çatışmazlığıyla əlaqədar pedaqoji fakültə açılsın, yaşlı müəllimlər üçün gürcü dili A1 səviyyədə götürülsün və uzunmüddətli treninqlər Azərbaycan dilində təşkil olunsun, xüsusi müəllimlər üçün (inklüziv) imtahan ana dilinə tərcümə olunsun, ibtidai siniflər üçün imtahan testləri tərcümə olunsun, bütü fənlər olsun, orta məktəblərdə gürcü ədəbiyyatı da keçirilsin, attestat imtahanları bərpa olunsun və o imtahanlar sırasına ana dili də əlavə olunsun, imtahanlar ildə 2 dəfə keçirilsin. İmtahanların nəticələri təcrübəsiz tələbələr tərəfindən yoxlanılır və böyük səhvlərə yol verilir. Dərsliklərin və imtahan testlərinin tərcümələrində çox kobud səhvlər var – qurultayın sonunda bütün bu təkliflər səsləndirildi. Sonda qurultayın hər iki ildən bir keçrilməsi qərara alındı.



Son olaraq bu gün üçün bütün əziyyətlərə qatlanaraq həmin 300 müəllimə bir-bir zəng edən, bizi bir yerə yığan Aygül İsayevaya və komandasına böyük təşəkkür edirəm! Yorulmayasınız!.

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

**On ikinci boy.** Yaz ayları gəlmişdi. Çənlibeldə başqa bir aləm idi. Dürat, xam dəli ayğırlar dəlisov olmuşdular. Düratın nadincliyi tutdu və başladı ayğırlarla gicimeyə. Birini vurdu, birini qapdı, birini təpiklədi. Axırda hamısını qabağına qatdı. Çənlibeldən aşağı töküb qovmağa başladı. Gethaget, gethaget, ilxı dağlar aşdı, düzlər keçdi, yamaclar dırmandı, enişlər endi, gəlib Ballıcada Qara xanın qoruğuna doldu. Qara xan əzazil bir xan idi. Gözlənildiyi kimi, bu tamahkar xan bu ilxıya yiyələndi.

Koroğlu bir növ bu ilxının, ələlxüsus da Düratın itirilməsinə üzüldü. Hirsindən dodaqlarını gəmirirdi. Nə dəlilər, nə Nigar xanım onu sakitləşdirə bildi.

Bu zaman Ballıcalı Qara xanın mehtəri peyda oldu. Mehtər Koroğluya ilxısına və Düratına kimin sahib çıxdığını xəbər verdi.

Koroğlu həmin an Qıratın belinə atıldı və dəstə Ballıcaya doğru istiqamət götürdü. Koroğlu dəliləri kənarda qoydu. Özü isə ilxıçı paltarı ilə Qara xanın yanına getdi. Qara xan ilə onun arasında söhbət olur, bu zaman Qara xan özünü ədəbsiz aparır və onunla lağlağı danışır. Koroğlu bir müddət səbir edir. Sonra isə ilxıçı paltarını soyunub qılıncı sivirir və ona hücum edir, bir andaca başını vurur. Dəlilər də davaya qoşulur, qırılan qırılır, qırılmayan da qaçır. Dəlilər Düratla bərabər, ilxı və böyük qənimətlə Çənlibelə qayıdırlar. Nigar xanım Koroğludan Ballıca səfərinin necə keçdiyini soruşanda, o, sazı sinəsinə basıb bu hücum barədə söz söyləyir...

Bu qısa həcmli dastan bir daha Koroğlunun misilsiz döyüş sənətini bizə nəql edir ki, bu da qırmızı xətt olaraq bütün dastanlardan keçir və bu baxımdan hər hansı bir diqqəti özünə cəlb etmir.

**On üçüncü boy.** Bu dastanın süjeti əvvəlki boylarda nəql olunan hadisələrin davamıdır:

Hasan paşanı Koroğlu ilə Ələmqulu xanın qohumluğu narahat etdi, Bolu bəyi və Ərəb Reyhanı yanına çağırtdırdı. Tədbir elədilər ki, Çənlibelə üç tərəfdən hücum eləsinlər. Hər üç paşa çoxbilmiş, hiyləgər idi. Hər üçü bu hücum zamanı az ziyan çəkmək və daha artıq mənfəət əldə etmək barəsində düşünürdü.

Rəvayətçi bu bəylərin eqoizmi və bir-birinə olan hiyləgər münasibəti elə irəlidən bizə nəql edir, bu da, ümumiyyətlə, eposun əsas motivinin başlıca məqsədini ifadə edir.

İlk olarq Çənlibel yörələrinə Bolu bəy ayaq basdı və öz sərkərdələri ilə birgə o yerləri bələdləməyə başladı. Koroğlu bir qayda olaraq səhər tezdən Çənlibelin ətrafını dolaşırdı. O, çoxlu atları, adamları görəndə geri gəlib dəlilərə xəbər verməyə ərindi. Lakin yolda Bolu bəylə üz-üzə gəldilər. Onlar arasında dialoq baş verir. Koroğlu Bolu bəyi əmin edir ki, o qoruqçudur. Lakin mehtər Murtuz onu görcək tanıdı. Onu tutdular və nə qədər döydülər, əzab verdilər, sındıra bilmədilər və onun Koroğlu olduğunu boynuna qoya bilmədilər. Lakin Bolu bəyi də, hər halda, şübhə hissi gəmirirdi və Koroğlu sazı sinəsinə basdı, onun cavabında dedi:

***"...*Koroğlu dediyin bir bəl-bəlidi,**  
**Çənlibeldə dövran quran dəlidi,**  
**Öz adım Rövşəndi, atam Alıdı,**  
**İndi Bolu, mən Koroğlu deyiləm"** *(Bax: "Koroğlu", səh 504; 527).*

Böyük tərəddüddən və məşvərətdən sonra Bolu bəy Koroğlunu aparmaq qərarına gəlir. Çünki mahnıdan bir şey çıxmadı, Koroğlu indi məntiqi mühakiməyə əl atır: "Yaxşı, sənin ağlın yoxdu, bu adamın sözünə baxıb məni aparırsan. Xotkarın da ağlı yoxdu? Ya mənim dilim yoxdu ki, onu başa salmayam? Niyə xotkar görmür ki, mən yaraqsız-yasaqsız bir adamam? Belə də Koroğlu olar?" Koroğlunun sözləri Bolu bəyi lap inandırdı. Əmr etdi, Koroğlunun əllərini açdılar. Koroğlu durub getmək istəyəndə Bolu bəy söz tulladı: "Deyirlər, qoç Koroğlu çox igiddi. Heç zaddan qorxmaz. Heç zadı da gizlətməz. İndi olan oldu, keçən keçdi. Görürsən ki, bax əllərin də açıqdı. İndi mərdi-mərdana özün de görək, sən Koroğlusan, ya yox?"

Koroğlu gülərək dedi: "İndi ki, sən mərdi-mərdana soruşursan, mən də mərdi-mərdana sənə cavab verəcəyəm. Bəli, mən Koroğluyam!"

Bolu bəy hiylə niqabını üzünə çəkərək deyir: "Hasan paşa məni göndərib ki, səni tutub aparam, əvəzində onun qızı Dünya xamımı alam". Koroğlu gülərək deyir: "Balam, bu Hasan paşa mənim yolumda qızlarını nə yaman hərrac-bazara qoyub satır? İndi ki belədi, qoy olsun. Mənim ucbatımdan onun bir qızı Həmzəyə gedib, qoy bu biri də sənə getsin". Sonra dedi: "Mən Koroğluyam. Bir sözü ki dedim, ölüm də olsa, ondan dönmərəm. İndi ki sən Hasan paşanın qızını almaq istəyirsən, o da qızın əvəzində səndən məni istəyir, eybi yoxdu. Mən razıyam. Qoy gedim, yaraq-yasağımı götürüm, gəlim".

Koroğlu Çənlibelə getdi. Başına gələnləri heç kimə danışmadı. Danışsaydı, onu buraxmayacaqdılar. Gizlicə geyindi, yaraqlarını götürdü, ata minib geri qayıtdı. Bolu bəyə dedi: "...Mən vədimə doğru çıxıb gəldim. Ancaq sən bayaq məni tutmuşdun. Birdən elə fikir eləyərsən ki, elə məni, doğrudan da, tutub apara bilərsən. Odu ki sənlə bir şərtim var. İndi gərək səninlə bir savaşam. Sən mənim gücümü görəsən, mən sənin. Ondan sonra gedək. Özü də sinəmə dörd xana söz gəlib. Əvvəl onu deyim, sonra vuruşaq". Bu şeirlə Bolu bəyə hərdən əli beldə durub əmr etdiyini, hərdənhərdən asın-kəsin dediyini, hərdən hökm eləyib gölə basdığını, yeddi min dəlinin kəltə kəli olduğunu və düşmənin qanından içsə doymadığını xatırladır... Bolu bəy yenə hiylə niqabını üzünə çəkir və mübarizə aparmaqdan boyun qaçırmaq istəyir. Lakin Koroğlu mübarizə aparmaq istəyir. Misri qılıncı çəkir və qoşuna hücum edir. Hələ lap uzaqdan şeşpəri qaldırır. Elə tullayır ki, Qəcər Alı təpəsi üstə gəlir yerə. Bolu bəy bunu görəndə özünü atdı Koroğlunun ayaqlarına. Koroğlu atdan yerə düşüb çökdü Bolu bəyin sinəsinə və dedi:

**"Qollarını bağladaram,**  
**Bolu, mən sənin, mən sənin.**  
**Anacığın ağladaram,**  
**Bolu, mən sənin, mən sənin.**

**Gözlərinə kül qoyaran,**  
**Ovucuna pul qoyaram.**  
**Nişanlını dul qoyaram,**  
**Bolu, mən sənin, mən sənin.**

**Qızıb sinənə çökərəm,**  
**Əlif qəddini bükərəm,**  
**Üstünə alov tökərəm,**  
**Bolu, mən sənin, mən sənin.**

**Koroğluyam, iş bitirrəm,**  
**Səni dünyadan itirrəm,**  
**Başın bədəndən götürrəm,**  
**Bolu, mən sənin, mən sənin"** *(Bax: "Koroğlu", səh 508; 531-532).*

Şeiri deyəndən sonra Koroğlu Bolu bəyin sinəsindən qalxdı və dedi: "İndi mən sənin ixtiyarındayam. Hara istəyirsən, necə istəyirsən, apar!"

Bu epizodu geniş şəkildə ona görə gətirdim ki, iki fərqli insan qrupları aydın şəkildə bir-birindən ayrılıb: Birinci tərəf qarşılıqlı dözülməzdir – yalnız özləri barədə düşünən bəylər və paşalar. İkinci tərəfdən isə azadlıq uğrunda fədakarlıqla mübarizə aparan Koroğludur ki, konkret halda gözüaçıq və danəndə insan, böyük məntiqi mühakimə ustadı kimi bizə təqdim olunur. Eyni zamanda igidlik ruhuna və əxlaqi xüsusiyyətlərə malikdirdir ki, bu da aydınca özünü göstərir. Birincisi, başına bədbəxt hadisə gələni heç kim görmür. İkincisi, verdiyi sözə möhkəm əməl edəndir, onu həyatı bahasına qoruyur və üçüncüsü, Koroğlu qafqazlı, xüsusən azərbaycanlı cəngavərlərin elədikləri kimi, əvvəlcə özünün "mənliyinin" yenilməzliyini sübut edir və sonra sözünə yalan çıxmamaq üçün öz istəyi ilə düşmənə təslim olur.

Tamamilə aydındır ki, bu, Orta əsrlərin qafqazlılarının əxlaqi inanc və etik məcəlləsidir, bu da estetik yüksəkliyə qədər ucaldılıb və mənim tərəfimdən dəfələrlə deyilən baxış dairəsini möhkəmləndirir: Əxlaqi olan şey gözəldir və gözəl olan şey əxlaqidir.

Lakin indi yenə eposun süjetinin gedişinə qayıdaq.

Koroğlu ilə Bolu bəy arasında dialoq baş verir: Koroğlunun döyüşünün nəticəsini görən Bolu bəy onu aparmaqdan imtina edir, çünki yolda Koroğlunun bir daha öz gözləri ilə gördüyü bu cür zarafatlar edəcəyindən qorxur. Ona nə Hasan paşa lazımdır, nə də qızı. Koroğlu onu sakitləşdirir və əmin edir ki, Koroğlu söz verməz, verdi, mənnətlik etməz və indi ki ondan ehtiyat edir, budur, gəl qollarımı bağla elə apar deyir. Bolu bəyə də elə bu lazım idi. Möhkəm zəncirlə Koroğlunun qollarını dalına bağladılar. Sonra bir-iki kəndirlə də ata sarıdılar. Koroğlunu qabaqlarına qatıb yola düzəldilər. Koroğlu Bolu bəyə xatırladır ki, qızı almamış onu Hasan paşaya təhvil verməsin. Yoxsa, o işi ki, mən Hasan paşanın başına gətirəcəyəm ondan sonra o sənə qız verməz.

Bolu bəy razılaşır, lakin bir hiyləgərlik yenə edir. Gözlənilmədən onun başına var gücü ilə qılınc vurur. Üz-gözü qızıl qana boyanan Koroğlu ona deyir: "Ay namərd, belə niyə elədin?" Bolu bəy isə deyir: "Elə elədim ki, inanalar. Mən gəlmişdim sənin ya başını aparam, ya leşini. İndi başını da apararam, leşini də. Sən Koroğlusansa, mənə də Bolu bəy deyərlər!"

Koroğlu elə bircə bunu dedi: "Günah səndə deyil, məndədi. Mənə bu da azdı".

Koroğlunun başını da bağlamadılar. Elə qanı axa-axa düzəldilər yola. Koroğlunun əli hər yerdən üzüldü. Bu dar vaxtında Çənlibel, dəlilər, xanımlar yadına düşdü. Qanrılıb elə baxdı, gördü uzaqdan Çənlibelin qoşa təpələri görünür. Ürəyi qubar elədi və narahat qəlbinin fəryadı olan bir gəraylı dedi *(Bax: "Koroğlu", səh. 510, 533-534).*

Süjetin bu kəsiyi də oxucunu bir daha əmin edir ki, xain və hiyləgər insan öz xəyanətkarlığından əl çəkmir. Dastanın müəllifi Bolu bəyin riyakar təbiətini təəssüratoyadıcı şəkildə təsvir edir, bu da ki, yetişən havaya müvafiq olaraq xarakterini dəyişir: Məğlub olanda Koroğlunun ayaqlarından öpür, hiyləgərliklə aldadılan və yoldan çıxarılan Koroğlu ilə özünü tay tutur: "Sən Koroğlusansa, mənə də Bolu bəy deyərlər". Koroğlu öz günahını başa düşür, etiraf edir ki, bu xəyanətkarın bayramı onun üzündəndir və bundan da betərinə layiq olmalıdır. Lakin onun xarakterinə, düşmənə qarşı amansızlığına və nifrətinə baxmayaraq, hər halda, daxili saflığına görə bağışlayandır və mərhəmət edəndir. Bu, qafqazlı igidlərin qəbul etdiyi ənənə idi: Məğlub olanı bağışlamaq və rəhm etmək! Koroğlu da bu tiplər sırasına yazılıb.

Koroğlu yolda qabaqdan gələn karvana baxdı ki, dostu Xoca Əziz də bəzirganların içindədi və ona öz durumunu işarə eylədi. Xoca Əziz tezcə özünü Çənlibelə yetirdi. Hər şeyi danışdı. Eyni zamanda Aşıq Cünun da özünü yetirdi. O da öz tərəfindən əlavə etdi. Xanlar və bəylər üç tərəfdən Çənlibelə hücuma keçmək niyyətində idilər. Dəlilərin içinə vəlvələ düşdü. Bəziləri bir şey söyləyirdi, bəziləri isə başqa şey. Nəhayət, yenə Nigar xanımın müdrik məsləhəti qalib gəldi. İsabalını yaralı Koroğlunu hara apardıqlarını müəyyən etmək üçün göndərdilər.

Bolu bəy isə Koroğlunu birbaş Ərzincana apardı və Hasan paşaya namə göndərdi. Namədə deyilirdi ki, Koroğlunu tutub gətirmişəm. Mən istəyirəm ki, Dünya xanımı bir günlüyə Ərzincana göndərəsən və sonra onu gətirmək mənim boynuma. Hasan paşanı Bolu bəyin naməsi hirsləndirdi. Lakin bir xeyli fikirləşəndən sonra öz qızını kəcavə ilə Ərzincana göndərdi. Özü isə atını minib xotkarın yanına gözaydınlığına getdi.

Dünya xanımın Bolu bəyi görəsi gözü yox idi. Amma yazıq nə eləsin? İxtiyarı nəyə çatırdı?

Ərzincana çatan Dünya xanımın yuxusu ərşə çəkildi. Qaranlıq düşəndə durub ayağa pəncərəni açıb əyləşdi qabağında. Qulaqlarına bir səs gəldi. Kimsə elə yanıqlı oxuyurdu ki, səs elə dərindən gəlirdi, elə bil quyunun dibindən gəlirdi. Qarabaşı yanına çağırdı. Bunun nə səs olduğunu soruşdu. Qarabaş da dedi ki, Koroğludur. Həmin an ondan gizlicə Koroğlunun salındığı o quyunun yanına aparmasını xahiş etdi. Getdilər, söhbət etdilər və Dünya xanım əvvəlcə onu yemləmək, sonra xilas etmək qərarına gəldi. Koroğlu isə quyudan aşiqanə bir gəraylı söylədi. Evə qayıdan Dünya xanım yenə pəncərənin önündə oturdu. İsabalı gözünə sataşanda evə dəvət etdi. Sən demə, bundan öncə qoşunun böyüyü ilə İsabalı çənə-boğazlıq edibmiş. Sən demə, qarabaş İsabalını içəriyə gətirəndən sonra qoşun böyüyü bir baş qaçıb əhvalatı Bolu bəyə danışıb. O isə qoşun yeritdi, ətrafı aldı. Dünya xanım ilə İsabalı arasında aşiqanə deyişmə baş verir. Qadın yalvarır ki, özünə bir çarə bul, dur get bu yerdən. İgid qaçmağı qeyri-əxlaqi hesab edir. Qısası, Dünya xanım və İsabalı bir yerdə gəldilər quyunun başına. Dünya xanımın Koroğlu dəlilərindən gələn olmadı, Bolu bəy də səni asmaq istəyir, nə edək? sualına Koroğlu quyudan dəliləri tərif eylədiyi mahnı ilə cavab verir. İsabalı Koroğluya səslənir ki, can Koroğlu, buradayam, çalıb-oxumaq vaxtı deyil, düşmən dörd tərəfimizi alıb, tez çıx görək nə eləyirik. İp atıb Koroğlunu tezcə quyudan çıxartdılar. Sonra onlar tövləyə girdilər və atları çıxartdılar. Sonra Koroğlu bir Dünya xanıma baxdı, bir İsabalıya baxdı və dedi: "Dünya xanım, hazırlaş, səni də aparacağıq, yenə də qoşma deyir və bitirər-bitirməz Koroğlu özünü vurur qoşuna. Qoşun elə bircə dəfə Koroğlunun boyunu gördü. Kim hara qaçırdı, necə qaçırdı, bilinmirdi. Üz qoydu qaçmağa. Qoşun Koroğludan gördüyünü görmüşdü. Bir anda meydan boşaldı. Koroğlu baxdı ki, Bolu bəy işi pis görüb əkilmək istəyir. Elə həmin an onun üstünü aldırdı. Hökmünü şeirlə dedi. Koroğlu qılıncı onun başına elə endirdi, iki böləndü. Sonra mehtər Murtuz gözünə dəydi, bu sonuncu özünü atdı Qıratın ayaqları altına və yalvarmağa başladı: "Koroğlu, bir qələtdi eləmişəm. Qul xatasız olmaz, ağa kərəmsiz. Məni dolandır Eyvazın başına". Koroğlu onu qabağına qatdı. İsabalı onu tanıyanda əlini qılınca atdı. Koroğlu onu qoymadı, Çənlibelə aparmalıyıq dedi. Bu ərəfədə Dünya xanın bir atın üstündə, qarabaş da bir atın üstündə gəldilər. Hamı Çənlibelə tərəf yola düşdü. Dağları görən kimi Koroğlunun ürəyi oynadı, gözləri doldu. Üzünü dağlara tutub qoşma dedi. Burada dağları qardaş kimi xatırladır, çünki onun döyüşlərində həmfikir olduğu və tacir-tüccarları orada gizlətdiyi, sirrini açmadığı sirdaşıdır və vurğulayır:

**"Koroğluyam, gəzdiyimi tapardım,**  
**Qayalar başında qala yapardım,**  
**Ağ sürüdən əmlik qizi qapardım,**  
**Yeyib qurtaranda ulaşım, dağlar!** *(Bax, "Koroğlu", səh. 523).*

Sonunda onu demək mümkündür ki, öz igidliyi və mənəvi yüksəkliyinə əmin olan Koroğlu bağışlamaq həddini aşır, göründüyü kimi, bu, onun irsi xüsusiyyətidir. Unutmamalıyıq ki, bu sarsılmaz inam həmçinin özünün silahdaşlarının, məsləkdaşlarının möhkəm sədaqəti və mərdliyi ilə məğlubolunmazlığın qidavericisidir. Doğrudan da dəlilər heç bir zaman xəyanət etmirlər.

Elə bu dastanda daha bir sevgi ilə dolu olan və ucalan ləyaqətli xanımın obrazı təsvir olunur. Haqqın haqlığı üçün və sevginin qələbə çalması üçün mübarizə aparır.

Nəhayət, ən başlıcası, Koroğlu düşmənə aman verməyən, paşaların qanını içən şir, bir növ həssas bir insandır və sentimental duyğulardan da xali deyildir. Bu, məhz elə dastanın finalında gözləri dolmuş halda dağlara olan sevgiyə aid söylədiyi qoşmada məlum olur.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:  
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN 2023-CÜ İL № 012 (183)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# SALOME ZURABİŞVİLİ NİKA QVARAMİANI ƏFV EDİB



Gürcüstan Prezidenti Salome Zurabişvili "Mtavari Arxi" telekanalının həbsdə olan həmtəsisçisi və baş direktoru Nika Qvaramianı əfv edib.

Bu barədə Prezident Salome Zurabişvili iyunun 22-də keçirdiyi xüsusi brifinqdə bildirib.

Prezident qərarına izahat verməyəcəyini, çünki əfv sərəncamı imzalamasının onun diskresion hüququ olduğunu vurğulayıb.

"Bu gün mən Nika Qvaramianın əfv sərəncamını imzaladım. Bu qərarı iyunun 19-da Ali Məhkəmənin kassasiya şikayətini rədd etməsi ilə bütün hüquqi yolların tükənməsindən sonra qəbul etdim. Mən bu qərara hər hansı bir izahat verəsi deyiləm, çünki bu gün öz diskresion hüququmdan istifadə etmişəm", – deyə S.Zurabişvili bildirib.

O, əlavə edib ki, iyunun 19-da Ali Apelyasiya Məhkəməsi Qvaramianın azadlığa buraxılması ilə bağlı şikayəti rədd edib və beləcə onun azadlığa buraxılması üçün bütün hüquqi alətlər tükənib, bu səbəbdən özü bu addımı atmalı olub.

Nika Qvaramianı həbsdə olduğu 12 saylı Rustavi cəzaçəkmə müəssisəsinin qarşısında ailə üzvləri, "Mtavari Arxi" telekanalının əməkdaşları, dostları qarşılayıb.

Telekanal rəhbəri mətbuata ilk açıqlamasında azadlığa buraxılmasını gözləmədiyini deyib. Əlavə edib ki, Prezident Salome Zurabişvili əfv qərarını Nika Qvaramia üçün deyil, prezidenti olduğu ölkə üçün qəbul edib.

Qvaramia Salome Zurabişvilini səhvində inad etməməyə və sabiq Prezident Mixeil Saakaşvilini də azadlığa buraxmağa çağırıb.

Xatırladaq ki, 2020-ci ilin sentyabrında Gürcüstanın Baş prokurorluğu "Rustavi 2" işi üzrə Nika Qvaramiaya qarşı ittiham irəli sürüb. Nika Qvaramia qabaqcadan əlbir olaraq "Rustavi 2" telekanalına məxsus külli miqdarda vəsaiti mənimsəməkdə, saxta sənədlərin hazırlanmasında, qeyri-qanuni gəlirlərin leqallaşdırılmasında ittiham edilib. Tbilisi Şəhər Məhkəməsi 2022-ci ilin 16 mayında Qvaramianı təqsirli hesab edərək 3 il 6 ay müddətinə azadlıqdan məhrum edib.

# GÜRCÜSTAN Aİ-YƏ ÜZ OLMAQ ÜÇÜN 12 TÖVSİYƏDƏN YALNIZ 3-NÜ YERİNƏ YETİRİB

Gürcüstan Avropa İttifaqı (Aİ) namizədi statusu əldə edilməsi üçün Avropa Komissiyası tərəfindən təqdim edilmiş 12 tövsiyədən yalnız 3-nü yerinə yetirib.

Bunu Aİ-nin Qonşuluq və Genişlənmə üzrə komissarı Oliver Varhelyi Gürcüstan, Ukrayna və Moldovanın islahatlar sahəsində əldə etdiyi tərəqqi ilə bağlı şifahi hesabatını təqdim edərkən deyib. O, qeyd edib ki, Gürcüstan gender bərabərliyi və qadınlara qarşı zorakılıq, AHİM qərarlarının nəzərə alınması, Ombudsmanın şəffaf proseslə müəyyən edilməsi sahələrində tövsiyələri yerinə yetirib.

Varhelyi 12 prioritet istiqamətdən 7-si üzrə bəzi irəliləyişlərin əldə edildiyini qeyd edib. Əlavə edib ki, bu irəliləyişlər qütbləşmə, seçki mühiti, şəffaf ədliyyə islahatları, mütəşəkkil cinayətkarlıq və korrupsiya ilə mübarizə sahələrindədir.

Qeyd edək ki, Gürcüstanın hakim "Gürcü Arzusu" partiyası bir neçə gün tövsiyyələrin 80 faizinin yerinə yetirildiyini, prosesin iyunun sonunadək yekunlaşacağını bəyan etmişdi.




# BOLNİSİDƏ İNŞA EDİLƏN PEŞƏ MƏKTƏBİ GƏLƏN İLİN SONUNADƏK İSTİFADƏYƏ VERİLƏCƏK



Bolnisi meriyasının məlumatına əsasən, Gürcüstanın Təhsil və Elm Nazirliyinin maliyyəsi ilə Bolnisi şəhərində müasir standartlara uyğun peşə məktəbinin tikinti işləri davam etdirilir.

Üçmərtəbəli peşə məktəbi 150 şagird üçün nəzərdə tutulub. Binada auditoriya, kitabxana, inzibati yer, konfrans və nümayiş zalları olacaq. Bina mərkəzi istilik və havalandırma sistemi ilə təchiz olunacaq.

Binanın həyatında açıq idman meydançası, yaşıl istirahət guşəsi, trenajorlarla təchiz olunmuş məşq meydançası və avtomobil dayanacağı quraşdırılacaq.

Peşə maktəbi birinci mərhələdə, regionun tələbatına uyğun olaraq, qısamüddətli və ixtisaslı peşə təhsili proqramları təklif edəcək. Tələbələr elektrik, santexnika sistemləri, informasiya texnologiyaları, kompüter şəbəkələri və s. üzrə təhsil almaq imkanı əldə edəcəklər.

Peşə məktəbinin tikintisinə Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyinin direktoru Levan Suxitaşvili, Kvemo Kartli qubernatoru Giorgi Doxturişvili, Bolnisi, Dmanisi, Tetritskaro və Tsalka bələdiyyələri üzrə deputatlar, Bolnisi meri və yerli özünüidarəetmənin nümayəndələri baxış keçiriblər.

Çoxfunksiyalı məktəbin tikintisi 2024-cü ilin sonunadək başa çatdırılacaq. Layihənin ümumi dəyəri 6 700 000 lari təşkil edir.

# GÜRCÜSTANDAN AZƏRBAYCANA AVTOMOBİL İXRACI ARTIB



Milli Statistika Xidmətinin ilkin hesablamalarına əsasən, Gürcüstan 2023-cü ilin yanvar-may ayları ərzində Azərbaycana 189,18 milyon ABŞ dolları dəyərində 12 916 ədəd avtomobil ixrac edib.

Məlumata görə, 2022-ci illə müqayisədə Azərbaycana ixrac edilən avtomobillərin dəyəri bu il 92,55 milyon dollar və ya 95,7 %, sayı isə 1 239 ədəd və ya 10,6 % çoxdur.

2022-ci ilin ilk beş ayı ərzində Gürcüstan Azərbaycana 96,63 mln. dollar dəyərində 11 677 ədəd avtomobil ixrac edib.

Cari il Gürcüstan ümumilikdə 1 mlrd. 15 mln. dollar dəyərində avtomobil ixrac edib ki, bu da illik ifadədə 854 % çoxdur. Bu il Gürcüstanın avtomobil ixracında Azərbaycanın payı təxminən 18 % olub. Avtomobil ixracı Gürcüstanın ümumi ixracının 17,3 %-ni təşkil edib.

# GÜRCÜSTANIN ELEKTRİK ENERJİSİ İXRACININ 89 FAİZİ TÜRKİYƏNİN PAYINA DÜŞÜB

Gürcüstan cari ilin yanvar-may ayları ərzində 600 396,00 min kilovat/saat elektrik enerjisi idxal edib. Bunun da 415,892,00 min kilovat/saatını ixrac edib. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Məlumata görə, Gürcüstanın elektrik enerjisi idxal etdiyi ölkələr sırasında Azərbaycan Rusiyadan sonra ikinci yerdədir.

Qeyd edilib ki, 2023-cü ilin 5 ayında Gürcüstan elektrik enerjisi ixracından 29 milyon, 898 min ABŞ dolları əldə edib ki, bunun da 89 faizi Türkiyənin payına düşüb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.